# HƏSƏNAĞA QURBANOVUN 60 İLLİK YUBİLEYİ QEYD OLUNDU



**Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin təşkilatçılığı ilə Azərbaycan Dövlət Musiqili Teatrında Əməkdar incəsənət xadimi Həsənağa Qurbanovun 60 illik yubiley tədbiri keçirildi.**

Əvvəlcə tədbir iştirakçıları Azərbaycan Dövlət Musiqili Teatrının foyesində fitri istedad sahibi, bəstəkar Həsənağa Qurbanovun həyat və yaradıcılığına həsr olunan fotosərgi ilə tanış oldular. Sərgidə Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsi tərəfindən nəşr edilən "Xatirələrdə yaşayan insan" və Meray Həsənağa qızının "Mən sənətkar qızıyam" kitabları oxuculara təqdim olundu.

Yubiley gecəsində Əməkdar incəsən xadimi, istedadlı pianoçu Həsənağa Qurbanovun yaradıcılığından bəhs edən sənədli film təqdim olundu.

Milli Məclisin deputatı, Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rəfael Hüseynov şəxsən yaxından tanıdığı, yaradıcılığına böyük dəyər verdiyi Əməkdar incəsənət xadimi Həsənağa Qurbanovun keçdiyi ömür yolundan söhbət açdı. O, söylədi ki, "Bu gün unudulmaz bir adın işığına, 60 yaşın bayramına toplaşmışıq. Həsənağa Qurbanovun ad gününü onsuz qeyd edirik. Həsənağa Qurbanov hələ cavan yaşından ağsaqqallığı və gəncliyi qoruyub saxladı. Vaxtilə yaradılan "Dan ulduzu" instrumental ansamblı Azərbaycanda yeni rənglə parladı. Bu ansamblı Əməkdar incəsənət xadimi Gülarə Əliyeva incə zövqlə yaratmışdı. Burada Şərqlə Qərbin vəhdəti təşkil olunmuşdu". Daha sonra Rəfael Hüseynov istedadlı pianoçu, bəstəkar, dirijor Həsənağa Qurbanovun "Dan ulduzu" instrumental ansamblına rəhbərlik etməsini, 2001-2007-ci illərdə Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin rəisi vəzifəsində də təşkilatçılıq qabiliyyətini, işinə həmişə məsuliyyətlə yanaşmasını qeyd etdi.

Tədbirdə Həsənağa Qurbanovun mahnıları ilə yanaşı, tanınmış bəstəkarlardan Emin Sabitoğlunun, Ələkbər Tağıyevin, Vasif Adıgözəlovun, Ramiz Mirişlinin, Şəfiqə Axundovanın, Mehriban Əliyevanın müəllifi olduqları mahnıları bədii rəhbər, Əməkdar artist Tarıyel Abbasovun müşayiəti ilə "Dan ulduzu" instrumental ansamblının kollektivi ifa etdi.

Xalq artistləri Samir Cəfərov və Ağadadaş Ağayev, Əməkdar artistlərdən Ruhəngiz Musəvi, İlqar Muradov, Nuriyyə Hüseynova və Zakir Əliyev, eləcə də Sərxan Bünyadzadə, Orxan Əlizadə, Vüsalə Əsgərova, Rövşən Əziz, Şəhla Həmidova lirik mahnı çələngini tamaşaçılara təqdim etdilər.

Sonda Əməkdar incəsənət xadimi Həsənağa Qurbanovun 60 illik yubileyinin və xatirə gecəsinin keçirilməsinə görə Mehri və Meray Qurbanovalar, Hüseynağa Qurbanova göstərdikləri diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, mədəniyyət və turizm naziri Əbülfəs Qarayevə, Bakı Şəhər İcra Hakimiyyəti başçısı Hacıbala Abutalıbova və Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin rəisi Əlikram Əliyevə minnətdarlıqlarını bildirdilər.

✍ **Təranə SƏDA**